KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

**Orxan Bəybala oğlu Usubaliyev**
***Məhəmməd Füzuli adına***
***Əlyazmalar insitutunun doktorantı***
***Orcid 0000-0001-6052-0989***

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA HUMANİTAR ELMLƏR ÜZRƏ KİTAB NƏŞRİNİN ÜMUMİ VƏZİYYƏTİ (2003-2020-ci illər)

***Xülasə:*** *Bu məqalədə Azərbaycanda kitab nəşrinin ümumi vəziyyəti (2003-2020-ci illər) şərh olunmuşdur. Məqalədə bu dövrdə humanitar elmlər üzrə ədəbiyyatın nəşri ön plana çəkilmişdir. Burada Azərbaycanda 2003-cü ildən 2020-ci ilə qədər humanitar elmlər və onun bütün bölmələri üzrə ədəbiyyatın illik ümumi statistikası işlənib hazırlanmış və tərtib olunmuş cədvəllərdə yerləşdirilmişdir. Məqalədə Azərbaycanda müasir dövrdə kitab nəşrinin (2003-2020-ci illər), eləcə də humanitar elmlər üzrə ədəbiyyatın ümumi vəziyyətindən və bu sahəyə dövlətimizin diqqət və qayğısından da bəhs edilmişdir. Həmçinin məqalədə bu dövrdə Azərbaycanda miniatür kitab nəşrindən də danışılır. Məqalədə eyni zamanda müasir dövrdə Azərbaycanda kitab nəşrinin problemlərindən, həmin problemlərin həlli yolları və kitab nəşrinin inkişaf istiqamətləri aydınlaşdırılmışdır.*

***Açar sözlər:*** *kitab nəşri, nəşriyyat işi, humanitar ədəbiyyat, miniatür kitab, milli ensiklopediya.*

**Orkhan Beybala oglu Usubaliyev**

## General condition of the publication of a book on the humanities in Azerbaijan in modern times (2003-2020)

***Abstract:*** *This article comments on the general state of book publishing in Azerbaijan (2003-2020). The article focuses on the publication of literature on the humanities during this period. Here, the annual general statistics of the literature on the humanities and all its sections in Azerbaijan from 2003 to 2020 are developed and placed in the compiled tables. The article discusses the general state of book publishing in Azerbaijan in modern times (2003-2020), as well as the literature on the humanities and the state's attention and care in this area. The article also mentions the publication of miniature books in Azerbaijan during this period. The article also clarifies the problems of book publishing in Azerbaijan in modern times, ways to solve these problems and the development of book publishing.*

***Key words:*** *book publishing, publishing, humanitarian literature, miniature book, national encyclopedia.*

Орхан Бейбала оглы Усубалиев

# Общее состояние издания книги по гуманитарным наукам в Азербайджане в современное время (2003-2020 гг.)

**Резюме:** *В данной статье комментируется общее состояние книгоиздания в Азербайджане (2003-2020 гг.). Статья посвящена публикации в этот период литературы по гуманитарным наукам. Здесь разработана годовая общая статистика литературы по гуманитарным наукам и всех ее разделов в Азербайджане с 2003 по 2020 годы и помещена в составленные таблицы. В статье рассматривается общее состояние книгоиздания в Азербайджане в современное время (2003-2020 гг.), А также литература по гуманитарным наукам и внимание и забота государства в этой области. В статье также упоминается издание миниатюрных книг в Азербайджане в этот период. В статье также разъясняются проблемы книгоиздания в Азербайджане в современное время, пути решения этих проблем и развитие книгоиздания.*

**Ключевые слова:** *книгоиздание, издательское дело, гуманитарная литература, миниатюрная книга, национальная энциклопедия.*

Azərbaycan xalqı dilini, irsini, mənəvi dəyərlərini, mədəniyyətini daim qoruyub saxlamış və saxlayır. "Azərbaycan kitabı" xalqımızın zəngin düşüncə tərzini əks etdirir. "Azərbaycan kitabı" ilk növbədə mənsub olduğu xalqına layiqli vətəndaş yetişdirməyə xidmət edir, bütün imkanlarını mövcud nöqsanları aradan qaldırmağa və zəruri dəyərləri artırmağa istiqamətləndirir. Belə ki, bu ideya əsl Azərbaycan kitabının milli funksiyasını xarakteriza edir. Buna görə də, Azərbaycan kitabının oxucusu müxtəlif olmuş, həm də ayrı-ayrı tarixi dövrlərdə müxtəlif oxucu qruplarını əhatə etmişdir. Kitabların mövzusu, məzmunu, elmi səviyyəsi oxucu maraqlarının formalaşmasına, mütaliə səviyyəsinin yüksəlməsinə əsaslı şəkildə təsir göstərir. Azərbaycan kitabının geniş şəkildə təbliği və yayılması məhz bu mənbənin məzmunu, bədii tərtibatı ilə əlaqədar olmuşdur.

Müstəqil dövlətimizdə əsası Ümumilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş ümumi dövlətçilik siyasətinin tərkib hissəsi olan mədəni siyasət də Prezidentimiz İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməkdədir. Prezidentin imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı" və s. kimi böyük strateji əhəmiyyət kəsb edən sənədlər bu mənada diqqətəlayiqdir.

Müasir dövrdə Azərbaycanda nəşriyyat müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların bəzi sahələrinin informasiya texnologiyası ilə təmin edilməsi, kompüterləşdirilməsi və internetə qoşulması üçün əlverişli şərait yaradılmışdır. Bu məqsədyönlü tədbirlər ölkəmizdə bütövlükdə kitabçılıq işinin inkişafına, eləcə də humanitar elmlər üzrə kitab nəşrinə, təbliği və yayılmasına, ədəbiyyat və incəsənətimizi, zəngin mədəniyyətimizi müasir dövrün tələbləri





səviyyəsində inkişaf etdirməyə əsaslı təsir göstərir. Bu mənada Prezidentin Sərəncamına əsasən 2004-cü ildən bəri latın qrafikalı nəşrlər hesabına kitab və kitabçılıq işi inkişaf edir, kitabxanaların fondu çap edilən yeni müxtəlif elm sahələrinə, eləcə də humanitar elmlərə dair ədəbiyyatlarla zənginləşir. Son illərdə 400 adda 10 milyondan çox nüsxə tirajla müxtəlif elm sahələrinə, eləcə də humanitar elmlərə dair kitab nəşr edilərək ölkəmizin kitabxanalarına hədiyyə olunmuşdur.

Müstəqillik şəraitində ölkəmizdə mövcud olan dövlət, özəl, idarə və müəssisə nəşriyyatlarının fəaliyyətləri üçün hər cür şərait yaranmışdır. Bunun nəticəsidir ki, indi nəşriyyat sisteminin nailiyyətləri ilə özünü kitabın istehsalında, nəşrində, tərtibatında, məzmun və elmi səviyyəsində, həmçinin miqdarında və s. büruzə verir. Belə bir faktı qeyd etmək kifayətdir ki, müasir dövrdə respublikamızda müxtəlif elm və bilik sahələri, eləcə də humanitar elmlər üzrə müxtəlif növ və tiplərdə 4 minə yaxın adda kitab və kitabça çapdan buraxılır. Bu da öz növbəsində kitab mədəniyyətinin ölkəmizdə sürətlə inkişaf etdiyini göstərməklə bərabər, insan fəaliyyətində xüsusi əhəmiyyət kəsb edən oxu və mütaliənin keyfiyyətinin, səmərəliliyinin yüksəldilməsinə müəyyən mənada təsir göstərir [20].

Prezidentin 27 dekabr 2004-cü il tarixli "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" Sərəncamına əsasən siyahıya 546 adda kitab daxil edilmiş və hər kitabın 25 min nüsxə tirajla çap edilməsi planlaşdırılmış, beləliklə 13 milyon 650 min nüsxə kitabın çapdan buraxılması nəzərdə tutulmuşdur. Sərəncamda adı çəkilən bu kitablar 2005-2009-cu illərdə çap edilərək, pulsuz olaraq respublikamızın kitabxanalarına hədiyyə edilmişdir. Dünyada bənzəri və analoqu olmayan bu tədbir müstəqil dövlətimizin mədəni siyasətinin təzahürüdür [19].

Humanitar elmlər üzrə milli ədəbiyyatın nəşri sahəsində ən mühüm nailiyyətlərdən biri Prezident İlham Əliyevin 12 yanvar 2004-cü ildə imzaladığı "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" Sərəncamı olmuşdur.

"Nəşriyyat işi haqqında" Qanun (2000) dövlətimizin yeni universal milli ensiklopediyasının nəşri üçün zəmin yaratdı. Azərbaycan Milli Ensiklopediyasının yüksək səviyyədə hazırlanıb nəşr olunmasını təmin etmək üçün Prezidentin 5 may 2004-cü il tarixli Sərəncamı ilə AMEA-nın "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi yaradıldı.

2007-ci ildə Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" adlı xüsusi cildi latın qrafikası ilə nəşr olunmuşdur. Azərbaycanın dünəni və bu günü: qədim tarixi və müasir həyatı, təbii sərvətləri və geosiyasi mövqeyi, elm, təhsil və mədəniyyət sahələrində nailiyyətləri kitabda öz ifadəsini tapmışdır. Xalqımızın həyatında baş vermiş mühüm hadisələri obyektiv şəkildə əks etdirən yeni ensiklopediya müstəqil dövlətçiliyimizin qazandığı uğurların obyektiv göstəricisidir. Cildin hazırlanmasında Azərbaycan Respublikasının nazirlikləri, komitələri və digər dövlət qurumlarının təqdim etdiyi materiallardan istifadə edilmişdir. 14 bölmədən ibarət kitabda 155 məqalə, 55 xəritə, 69 xəritə-sxem, 588 illüstrasiya, 17 sxem və 97 cədvəl verilmişdir. Gətirilən rəqəmlər, faktlar və cədvəllər son illərin statistik məlumatları əsasında verilmişdir [21].

2009-cu ildə Azərbaycan Milli Ensiklopediyasının birinci cildi çap olunmuşdur [18].

Prezidentin Sərəncamına əsasən 2004-cü ildə nəşr olunmuş iki cilddən ibarət "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası" dəyərli mənbələrdən biridir. Bu ensiklopediyanın baş redaktoru Yaqub Mahmudovdur.

Müstəqillik illərində eləcə də Sara Aşurbəylinin "Şirvanşahlar dövləti (VI-XVI əsrlər) (1997), "Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü" (1998), Musa Kalakatlının "Albaniya tarixi" (2006), M.Qoşun "Albaniya səlnaməsi" (2006), Səbuhi Əhmədovun "Azərbaycan tarixindən yüz şəxsiyyət" (2006), Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" (2007), "Dinlər, təriqətlər, məzhəblər" (2007), Ziya Göyalpın "Türkçülüyün əsasları" (2010), R.Əsgərovun "Monqolların gizli tarixi" (2011), "Orxon abidələri" (2012) və digər tarixi əsərlər çapdan çıxmışdır.

AMEA-nın Tarix İnstitutu "Azərbaycan tarixi" yeddicildliyini 1998-2003-cü illərdə kiril qrafikası ilə, 2007-2008-ci illərdə isə latın qrafikası ilə "Elm" nəşriyyatında təkrar nəşr etdirmişdir.

Müasir informasiya cəmiyyətinin nəşriyyatlarının qarşısına qoyduğu aktual problemlər içərisində kitab-nəşriyyat-oxucu problemi mühüm yer tutur. Bu, müstəqil dövlətimizin kitab nəşri sahəsində ardıcıl siyasətinin davamıdır. Xalqın maariflənməsi, gələcək nəsillərin savadlı yetişməsi baxımından bu sərəncamın humanitar elmlər üzrə kitab nəşrinin aktual problemlemlərinin həllində müstəsna əhəmiyyəti vardır. Bu baxımdan 2003-2019-cu illərdə Azərbaycan Respublikası ərazisində çapdan çıxan kitab və kitabçaların (eləcə də humanitar elmlər üzrə) ümumi statistikasına nəzər salaq.

*Cədvəl 1.*

**2003-2019-ci illərdə kitab və kitabçaların ümumi statistikası**

| İllər | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|
| Kitab və kitabçaların ümumi sayı, adda | 2140 | 2203 | 2372 | 2167 | 2595 | 2232 | 2322 | 2776 |
| Humanitar elmlər üzrə kitab və kitabçaların ümumi sayı, adda | 1424 | 1604 | 1751 | 1632 | 1946 | 1587 | 1749 | 2046 |

| 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| 2079 | 2848 | 2733 | 2997 | 2738 | 3112 | 2429 | 1813 | 1444 |
| 1485 | 2137 | 1981 | 2282 | 1952 | 2285 | 1779 | 1708 | 1235 |



KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

*Cədvəl 2.*

**2003-2010-cu illərdə Humanitar elmlərin bölmələri üzrə çap edilən ədəbiyyatın ümumi statistikası**

| Humanitar elmlər və kütləvi ədəbiyyat | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
| Elmşünaslıq | 95 | 106 | 132 | 108 | 103 | 97 | 133 | 132 |
| Fəlsəfə | 16 | 26 | 46 | 31 | 45 | 37 | 36 | 55 |
| Psixologiya | 11 | 18 | 13 | 15 | 18 | 21 | 11 | 11 |
| Din, Teologiya | 28 | 27 | 38 | 36 | 45 | 32 | 64 | 39 |
| Politologiya | 170 | 189 | 101 | 124 | 194 | 135 | 109 | 94 |
| Hüquq | 144 | 105 | 136 | 101 | 120 | 133 | 142 | 160 |
| Pedaqoqika | 159 | 100 | 89 | 100 | 263 | 67 | 157 | 291 |
| Mədəniyyətşünaslıq | 75 | 83 | 82 | 63 | 128 | 161 | 161 | 179 |
| Filologiya | 116 | 137 | 159 | 175 | 188 | 178 | 138 | 192 |
| Ədəbiyyatşünaslıq | 105 | 94 | 110 | 110 | 110 | 88 | 123 | 99 |
| Folklor | 23 | 27 | 25 | 18 | 21 | 23 | 23 | 34 |
| Azərbaycan ədəbiyyatı | 370 | 512 | 555 | 473 | 466 | - | Bədii ədəb. birgə | Bədii ədəb. birgə |
| Bədii ədəbiyyat | - | - | - | - | - | 368 | 389 | 481 |
| Xarici ədəbiyyat | - | 52 | 50 | 82 | 51 | 42 | 84 | 40 |
| Uşaq ədəbiyyatı | 8 | 29 | 44 | 24 | 13 | 22 | 10 | 34 |
| Etika, Estetika | 2 | 4 | 3 | 2 | 4 | 3 | 2 | 3 |
| Tarix | 95 | 92 | 156 | 162 | 166 | 177 | 158 | 191 |
| Etnoqrafiya | 7 | 3 | 12 | 8 | 11 | 3 | 9 | 11 |

Humanitar elmlər üzrə nəşr olunan kitablardan bəzilərini qeyd edək: "Qarabağ folkloru antalogiyası" (2000), "Naxçıvan ensiklopediyası" (2002), "Azərbaycan mühacirət mətbuatı" (2003), "Atalar özü" (2004), "Azərbaycan bayatıları" (2004), "Azərbaycan nağılları" (2005), "Əkinçi" (1875-1877) (2005), "XIX əsr Azərbaycan şeiri antalogiyası" (2005), "Ərəb və fars sözləri lüğəti. İki cilddə" (2005), "Azərbaycan klassik ədəbiyyatından seçmələr". Üç cilddə (2005), "Azərbaycan dilinin izahlı lüğəti". Dörd cilddə (2006), "Qarabağnamələr" (2006), Malik Mahmudov "Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər) (2006), "Azərbaycan etnoqrafiyası" 3 cilddə (2007), "Farsca-azərbaycanca lüğət" (2007), "Azərbaycan toponimlərinin ensiklopediyası" (2007), Elməddin Əlibəyzadə. "Azərbaycan ədəbiyyatı tarixi" (ən qədim dövrlər) (2009), İsgəndər bəy Münşi Türkman. "Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-alemaraye-Abbasi)" (2011), Ceyhun Hacıbəyli "Bir il xəyallarda... və Bütöv bir ömür" (2015), "Qürbətdən gələn səslər" (2015), Nizami Cəfərov "Molla Pənah Vaqif" (2017), "Heydər Əliyevin biblioqrafiyası" (tərtibatçı F.Məmmədov) (2018) və s.

*Cədvəl 3.*

**2011-2019-cu illərdə Humanitar elmlərin bölmələri üzrə çap edilən ədəbiyyatın ümumi statistikası**

| Humanitar elmlər və kütləvi ədəbiyyat | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| Elmşünaslıq | 98 | 125 | 145 | 122 | 173 | 158 | 119 | 152 | 77 |
| Fəlsəfə, Məntiq | 29 | 32 | 32 | 54 | 37 | 41 | 26 | 40 | 9 |
| Psixologiya | 19 | 25 | 26 | 69 | 44 | 43 | 31 | 38 | 25 |
| Din, Teologiya | 39 | 50 | 55 | 84 | 58 | 74 | 66 | 79 | 39 |
| Politologiya | 109 | 108 | 77 | 90 | 86 | 110 | 89 | 102 | 47 |
| Hüquq | 84 | 161 | 131 | 147 | 136 | 187 | 125 | 148 | 34 |
| Pedaqoqika | 171 | 372 | 188 | 92 | 123 | 160 | 110 | 164 | 238 |
| Mədəniyyət-şünaslıq | 149 | 150 | 242 | 214 | 129 | 163 | 144 | 163 | 49 |
| Filologiya | 145 | 191 | 148 | 193 | 195 | 226 | 203 | 234 | 58 |
| Ədəbiyyat-şünaslıq | 73 | 140 | 122 | 139 | 142 | 132 | 101 | 33 | 111 |
| Folklor | 23 | 33 | 65 | 68 | 55 | 55 | 36 | 28 | 23 |
| Azərbaycan ədəbiyyatı | Bədii ədəb. birgə | Bədii ədəb. birgə | Bədii ədəb. birgə | Bədii ədəb. birgə | Bədii ədəb. birgə | Bədii ədəb. birgə | Bədii ədəb. birgə | Bədii ədəb. birgə | Bədii ədəb. birgə |
| Bədii ədəbiyyat | 309 | 400 | 363 | 531 | 443 | 479 | 374 | 163 | 301 |
| Xarici ədəbiyyat | 56 | 61 | 91 | 153 | 105 | 99 | 62 | 34 | 59 |
| Uşaq ədəbiyyatı | 24 | 57 | 34 | 45 | 48 | 104 | 71 | 23 | 59 |
| Etika, Estetika | - | - | 2 | 1 | 3 | 9 | 4 | 3 | - |
| Tarix | 150 | 219 | 251 | 278 | 271 | 238 | 213 | 302 | 103 |
| Etnoqrafiya | 7 | 13 | 9 | 2 | 4 | 7 | 5 | 2 | 3 |

*Mənbə: Birillik Azərbaycan kitabiyyatı (2003-2018-ci illər). - Bakı: M.F.Axundov adına Milli Kitabxana [1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16].*

Müasir dövrdə Azərbaycanda miniatür kitab nəşri sahəsində də xeyli işlər həyata keçirilmiş və bir sıra uğurlar əldə edilmişdir. Miniatür kitab dedikdə ən zərif və nəfis şəkildə tərtib olunmuş kiçik ölçülü kitablar nəzərdə tutulur. Miniatür kitabların yüksək zövqlə və yaxşı halda çap olunması poliqrafiyanın inkişafını səciyyələndirir. Çap edilən miniatür kitabların əksəriyyətini humanitar elmlər üzrə ədəbiyyatlar təşkil edir. Miniatür kitabların standart şəkildə maksimal ölçüsü 10x10 (mm) olmalıdır.

Beynəlxalq təcrübə baxımından miniatür kitabların nəşri Azərbaycan kitabının miniatürləşməsi istiqamətində ilk addımlar hesab edilə bilər. Belə ki, Azərbaycan kitabının miniatürləşməsi fəaliyyəti 1940-cı illərin əvvəllərindən daha da genişlənmişdir. Bu dövrdə uşaqlar üçün nəzərdə tutulmuş 20-yə qədər kiçik formatlı (ölçüsü 60 mm-dən 100 mm-dək) nəşr çap olunur. Bu nəşrlər sırasında Azərbaycanlı müəlliflərin əsərləri ilə yanaşı, tərcümə əsərləri də vardır.





Azərbaycan miniatür kitab çapının genişləndirilməsi üçün 1970-1980-cı illərdə uğurlu iş həyata keçirilmiş və ölkəmizin ayrı-ayrı nəşriyyatları olan "Azərnəşr", "İşıq" və "Yazıçı" tərəfindən 30-dan artıq miniatür kitab nəşr edilmişdir. Maraqlı fakdır ki, bu miniatür kitablardan kiçik bir qismi iki-üç dildə çapdan çıxmışdır. Belə ki, "Bakı" foto albomu ingilis və rus dilli, M.F.Axundovun "Şərq" poeması Azərbaycan, rus və fars dilli, "Yazıçılar, alimlər, bəstəkarlar, incəsənət xadimləri Üzeyir Hacıbəyov haqqında" miniatür nəşri isə Azərbaycan və rus dilli oxucular üçün nəzərdə tutulmuşdur.

Müasir dövrdə Azərbaycanda miniatür kitab nəşrinin inkişafı, belə kitablara dərin maraq miniatür kitab muzeyinin yaradılmasına səbəb olmuşdur. Azərbaycanda miniatür kitab muzeyi 2002-ci il aprel ayının 23-də Azad Kitabsevərlər Cəmiyyətinin, Bakı Qadınlar Assosiasiyasının sədri, Azərbaycan Milli Olimipiya Komitəsinin Şura üzvü, filoloq Zərifə Salahova tərəfindən (dünya şöhrətli rəssam Tahir Salahovun bacısıdır) təsis edilmişdir Z.Salahova bu muzeyin həm təsisçisi, həm də rəhbəridir. O, şəxsi muzeyindəki kitabları uzun illər ərzində toplamışdır. Muzeydəki stendlərdə 8000-dən çox kitab nümayiş olunur. Muzeyin fondunda isə 3000-dən çox kitab vardır. Burada dünyanın 60-dan çox ölkəsində çap olunan müxtəlif istiqamətli kitablar nümayiş etdirilir. Muzeydə mövcud olan Azərbaycan miniatür kitablarının 80 %-ni Z.Salahova öz hesabına çapdan buraxmışdır. Onların içərisində Azərbaycan, rus və ingilis dillərində çapdan buraxılmış ictimai-siyasi və bədii ədəbiyyat üzrə (humanitar istiqamətli) miniatür kitablar xüsusən əksəriyyət təşkil edir.

Muzeyin stentlərini klassiklərimizdən N.Gəncəviyə, M.Füzuliyə və İ.Nəsimiyə, habelə müasir Azərbaycan ədəbiyyatının tanınmış simaları olan C.Novruz, N.Rəfibəyli və digər ədiblərə həsr olunmuş miniatür kitablar bəzəyir.

Muzeydəki miniatür kitabların mövzusu və bədii-poliqrafik tərtibatı da xeyli rəngarəngdir. Muzeydə, həmçinin dini miniatür kitablar, uşaq ədəbiyyatı, olimpiya və idman hərəkatı və s. bu kimi mövzular üzrə də miniatür kitablar mövcuddur.

Dini miniatür kitablara gəldikdə isə qeyd edək ki, XVII-XVIII əsrlərə aid İslam dininin müqəddəs kitabı olan "Qurani-Kərim"lə bağlı miniatür kitablar əksəriyyət təşkil edir. Xristianlıq dininə aid miniatür kitablardan "Dua kitabları", "Katolik dua kitabları" və s. bu kimi mənbələri də qeyd edə bilərik.

Muzeydə A.S.Puşkinin sağlığında çapdan buraxıldığı "Yevgeni Onegin" adlı miniatür kitab da mühafizə olunur. Bu nəfis tərtibatlı kitab nadir və qiymətli mənbələrdən hesab olunur.

1978-ci ildə Yaponiyada çapdan buraxılan 16 səhifədən ibarət olan miniatür kitab muzeydəki ən kiçik ölçülü nəşr hesab olunur. Bu nəşrin ümumi ölçüsü 2x2 mm-dir. Bu kitabın hər səhifəsində 50-100-ə qədər Yapon heroqlifi yerləşdirilmişdir. Kitabın mövzusu qiymətli daşlar, bürclər və güllər haqqındadır.

Ən çox oxunan miniatür kitablar sırasında isə "Kitabi Dədə Qorqud", "Qurani-Kərim", "Koroğlu" və s. adlarını qeyd etmək mümkündür.

Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda milli kitab mədəniyyətinin inkişafındakı dəyərli fəaliyyəti və əhəmiyyətli xidmətlərinə görə Zərifə Salahova "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2012-ci ildə isə Belarusiya

Prezidentinin fərmanına əsasən Z.Salahova Belarus Respublikasının dövlət mükafatı - "Fransisk Skarina" medalına layiq görülmüşdür [23].

Ümumiyyətlə, dünyada daha çox miniatür kitab Rusiyada, ABŞ-da və Almaniyada çap edilir. Müasir dövrdə Azərbaycanda miniatür kitabların nəşri məhdud səviyyədə həyata keçirilir. Buna baxmayaraq, hazırda bu sahədə uğurlu fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş və dövrün tələbləri nəzərə alınmaqla yeni-yeni miniatür kitablar çap edilməkdədir. Bu isə o deməkdir ki, sahə üzrə davamlı işlər aparılır və mövcud çatışmazlıqları, mürəkkəblikləri və ziddiyyətləri aradan qaldırmaq yolunda ciddi və məqsədyönlü addımlar atılır.

Müstəqillik illərində milli kitab sənətinin inkişafı və təbliğində, eləcə də humanitar elmlər üzrə kitab nəşri istiqamətində Kitab Klubunun əvəzsiz fəaliyyəti xüsusən diqqətəlayiqdir. Kitab Klubunda mütəmadi olaraq keçirilən yeni nəşr olunmuş kitabların təqdimatı (E.Həsənov "Qatillər", V.Məmmədli "Tunc mələk", F.Bağırlı "Keçmişlə ədəbiyyat arasında", F.Qaraoğlu "Ermənilər və həqiqətlər", R.Ş.Gündör "Yas ayini", K.David "Çingiz xan", Ş.Əsgərov "Düşüncə tərzi", R.Əlizadə "Azərbaycan folklorunda təbiət kultları", E.Həsənov "Öldür onu, ya da qanlı Nona", "Kitabşünaslıq və nəşriyyat işi" jurnalı, Ç.Abdullayevin "Qatil üçün qrampri" və "Üçüncü variant" və s.), tanınmış alim, yazıçı və şairlərlə görüşlər, ölkələrarası sərgi və müsabiqələrdə qazanılan müvəffəqiyyətlər tərtibatçı rəssamlarımızın daha geniş miqyasda tanınmasına səbəb olur. Məsələn, XX Beynəlxalq Kitab Sərgisində (05.09.2007, Moskva) "Çaşıoğlu" nəşriyyatında hazırlanmış "Hər kim yüz il yaşamasa" kitabının "Müasirimiz" nominasiyasında I yerə, V.Almasovun "Peyğəmbər aşiqi Füzuli" kitabının "Mənim universitetlərim" nominasiyasında gümüş mükafata, əvvəllər də (məsələn, "Qarabağ" və s.) beynəlxalq sərgilərdə müxtəlif mükafatlar almış "Təhsil" nəşriyyat-poliqrafiya müəssisəsinin (naşir B.Axundov) Beynəlxalq Kitab Sənəti müsabiqəsinə (Moskva-2010) təqdim etdiyi "Çərçivə" (Ç.Əlioğlu) kitabının (bədii və texniki redaktoru A.Ələkbərov, rəssamları G.Ağayev və S.Hacıyeva) sərginin ən yüksək "Qran-Pri" mükafatına layiq görülməsi, ölkəmizdə xeyli peşəkar kitab tərtibatçılarının yetişdiyini və bu sahədə müəyyən uğurların qazanıldığını göstərir.

"Müasir ol - kitab oxu!" çağırışı ilə gənclərə səslənən Kitab Klubu günbəgün yenilənən orijinal üsulların köməyilə "Azərbaycan gəncləri kitab oxumur", "kitab alınmır" kimi stereotipləri aradan qaldırmaq istiqamətində müntəzəm və sistemli iş aparmışdır. Mükəmməl təhsil alıb elmə dərindən yiyələnən gənclərə tələbatın yüksək olduğu müstəqil Azərbaycanda ictimaiyyətin və KİV-nin köməyi ilə cəmiyyətdə kitaba olan marağın artırılması, gənclərin daha etibarlı kitaba istiqamətləndirilməsi son dərəcədə vacibdir [17].





## ƏDƏBİYYAT

1. Birillik Azərbaycan kitabiyyatı-2003 / baş red.: K.Tahirov. - Bakı, 2007. - 318 s.
2. Birillik Azərbaycan kitabiyyatı-2004. - Bakı, 2007. - 320 s.
3. Birillik Azərbaycan kitabiyyatı-2005. - Bakı, 2007. - 382 s.
4. Birillik Azərbaycan kitabiyyatı - 2006 / baş red. K.Tahirov; tərt. L.Talıbova, N.Rzaquliyeva; M.F. Axundov ad. Azərbaycan Milli Kitabxanası. - Bakı, 2008. - 362 s.
5. Birillik Azərbaycan kitabiyyatı-2007 / tərt. L.Talıbova, N.Rzaquliyeva. - Bakı, 2009. - 280 s.
6. Birillik Azərbaycan kitabiyyatı -2008 / tərt. L.Talıbova, N.Rzaquliyeva. - Bakı, 2010. - 318 s.
7. Birillik Azərbaycan kitabiyyatı-2009 / tərt. L.Talıbova, N.Rzaquliyeva. - Bakı, 2011. - 353 s.
8. Birillik Azərbaycan kitabiyyatı-2010 / tərt. L.Talıbova, N.Rzaquliyeva. - Bakı, 2012. - 430 s.
9. Birillik Azərbaycan kitabiyyatı-2011 / tərt. L.Talıbova, N.Rzaquliyeva. - Bakı, 2012. - 318 s.
10. Birillik Azərbaycan kitabiyyatı-2012 / tərt. L.Talıbova, N.Rzaquliyeva. - Bakı, 2013. - 349 s.
11. Birillik Azərbaycan kitabiyyatı-2013 / tərt. L.Talıbova, N.Rzaquliyeva. - Bakı, 2014. - 350 s.
12. Birillik Azərbaycan kitabiyyatı-2014 / tərt. L.Talıbova, N.Rzaquliyeva. - Bakı, 2014. - 355 s.
13. Birillik Azərbaycan kitabiyyatı-2015 / tərt. L.Talıbova. -Bakı, 2016. - 358 s.
14. Birillik Azərbaycan kitabiyyatı-2016 / tərt. L.Talıbova. -Bakı, 2017. - 424 s.
15. Birillik Azərbaycan kitabiyyatı-2017 / elmi red. K.Tahirov; tərt. L.Talıbova. - Bakı, 2018. - 350 s.
16. Birillik Azərbaycan kitabiyyatı-2018 / tərt. L.Talıbova. -Bakı, 2019. - 457 s.
17. Allahverdiyev B. Kitabşünaslığın əsasları. - Bakı: Uni Print, 2011. - 446 s.
18. Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (12 yanvar 2004-cü il). "Respublika" qəz. , 2004, 13 yanvar.
19. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı // "Respublika" qəz., 2004, 13 yanvar.
20. Aslan K. Müasir şəraitdə nəşriyyat işinin aktual problemləri // "İnformasiya cəmiyyəti və kitabxana-informasiya fəaliyyəti" mövzusunda Respublika elmi konfransının tezisləri (Bakı Dövlət Universiteti, 20 dekabr 2012). - Bakı, 2012, s.12-16.
21. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild. Bakı: "Lider" nəşriyyatı. 2004, s.67-72.
22. Usubaliyev O. Müasir dövrdə Azərbaycanda milli kitab nəşri // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal. - Bakı, 2016. №1 (38). s.172-176.
23. Усубалиев О. Издание миниатюрных книг в Азербайджане в современный период. Международная научово-практическая конференция: Львов, 2016, с.78-81.